# Ərəb mətbuatı Laçın şəhərində Azərbaycan bayrağının ucaldılması barədə xəbərlər yayımlayıb




Ərəb KİV-ində Laçın şəhərində Azərbaycan bayrağının ucaldılması barədə xəbərlər yayımlanıb.

AZƏRTAC xəbər verir ki, Misirin "Əl Əhram", "Əl Fağr", "Nəbd", Birləşmiş Ərəb Əmirliklərinin "Emarat", Livanın "Əl Nashra" qəzetlərində avqustun 26-da Laçın şəhərində Azərbaycanın Dövlət Bayrağının ucaldılması haqqında materiallar dərc olunub. Xəbərlərdə diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev avqustun 26-da Azərbaycan Ordusunun Laçın şəhərində yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi barədə paylaşım edib. Dövlət başçısı bu münasibətlə bütün laçınlıları və Azərbaycan xalqını təbrik edib.

Azərbaycan.- 2022.- 27 avqust.- S.3.